*Azərbaycanın görkəmli şəxsiyyətləri*



# RAUF HACIYEV

Biblioqrafiya

RAUF HACIYEV • Biblioqrafiya

Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

Azərbaycan
Milli Kitabxanası

*Azərbaycanın görkəmli şəxsiyyətləri*

# Rauf Hacıyev

***(Rauf Soltan oğlu Hacıyev)***

***Biblioqrafiya***

**Bakı – 2022**

**KBT: Я19:Щ313(2A)7-8я1**
**UOT : 78.071.1(479.24)**

**Tərtib edəni:** **Lalə Şirinova**

**Elmi redaktor:** **Kərim Tahirov,**
*professor,*
*Əməkdar mədəniyyət işçisi*

**Ön sözün müəllifi:** **Leyla Quliyeva,**
*Sənətşünaslıq üzrə fəlsəfə doktoru,*
*dosent*

**Redaktor:** **Günel Əfəndiyeva**
**Elnur Nəciyev**

**Hacıyev Rauf – 100:** (Hacıyev Rauf Soltan oğlu): biblioqrafiya / Tərt. ed. L.Şirinova; elmi red. K.Tahirov; ön söz. L.Quliyeva; red. G.Əfəndiyeva, E.Nəciyev.– Bakı, 2022. – 240 s.

Azərbaycan Milli Kitabxanasının "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından tərtib etdiyi "Rauf Hacıyev" biblioqrafiyası Azərbaycanın görkəmli bəstəkarı və dövlət xadimi, SSRİ Xalq artisti Rauf Hacıyevin anadan olmasının 100 illiyinə həsr edilmişdir. Biblioqrafiyada bəstəkarın əsərləri, not nəşrləri, səsyazmaları, kitabları, həyat və yaradıcılığı haqqında materiallar, habelə dünya milli kitabxanalarında mühafizə olunan nəşrlər öz əksini tapmışdır.

Biblioqrafiya sənətşünaslar, musiqişünaslar, tədqiqatçılar, konservatoriya və musiqi məktəbinin tələbələri, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN 978 9952 554 36 6

**© Azərbaycan Milli Kitabxanası, 2022**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi

Azərbaycan Milli Kitabxanası

*Prominent personalities of Azerbaijan*

# Rauf Hajiyev

*(Rauf Soltan oglu Hajiyev)*

***Bibliography***

Baku – 2022

**UDC: Я19:Щ313(2А)7-8я1**
**LBC: 78.071.1(479.24)**

**Compiled by:** **Lale Shirinova**

**Scientific editor:** **Karim Tahirov**
*Professor,*
*Honored Cultural worker*

**Author of the foreword:** **Leyla Guliyeva,**
*Doctor of philosophy in art studies,*
*associate professor*

**Editor:** **Gunel Efendiyeva**
**Elnur Neciyev**

**Hacıyev Rauf :** (Rauf Soltan oglu Hajiyev): bibliography / compiled by: L.Shirinova; scientific ed.: K.Tahirov; auth. of the for. L.Guliyeva;ed. G.Efendiyeva; E.Neciyev. – Baku, 2022. – 240 p.

The "Rauf Hajiyev" bibliography compiled by the National Library of Azerbaijan from the series "Prominent personalities of Azerbaijan" is dedicated to the 100th anniversary of the birth of Rauf Hajiyev, the outstanding composer and statesman of Azerbaijan, People's Artist of the USSR. The bibliography includes the composer's works, sheet music publications, recordings, books, materials about his life and work, as well as publications preserved in the national libraries of the world.

The bibliography is intended for art historians, musicologists, researchers, students of conservatory and music school, librarian-bibliographers and a wide range of readers.

ISBN 978 9952 554 36 6

**© Azerbaijan National Library, 2022**

Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

Azərbaycan
Milli Kitabxanası

*Выдающиеся личности Азербайджана*

# Рауф Гаджиев

***(Рауф Солтан оглы Гаджиев)***

***Библиография***

**Баку – 2022**

**ББК: Я19:Щ313(2А)7-8я1**
**УДК: 78.071.1(479.24)**

**Составитель:** **Лала Ширинова**
**Научный редактор:** **Керим Тахиров,** *профессор, Заслуженный работник культуры*

**Автор предисловия:** **Лейла Гулиева,** *доктор философии по искусствоведению, доцент*

**Редактор:** **Гюнель Эфендиева**
**Элынур Наджиев**

**Рауф Гаджиев** (Рауф Солтан оглы Гаджиев): библиография / Сост.: Л.Ширинова; науч.ред. К.Тахиров; автор предисл. Л.Гулиева; ред Г.Эфендиева, Э.Наджиев. – Баку, 2022. – 240 с.

Очередной библиографический указатель из серии «Выдающиеся деятели Азербайджана», изданный Азербайджанской Национальной Библиотекой посвящен к 100-летию со дня рождения азербайджанского композитора, политического деятеля, народного артиста СССР Рауфу Гаджиеву. В библиографии отражены ноты, звукозаписи, музыкальные произведения, книги и ценные материалы о жизни и творчестве композитора, а также издания его произведений, хранящихся в крупнейших национальных библиотеках мира.

Библиография предназначена для искусствоведов, музыковедов, исследователей, студентов консерватории и музыкальной школы, библиотекарей-библиографов и широкого круга читателей.

ISBN 978 9952 554 36 6

**© Национальная Библиотека Азербайджана, 2022**

## Rauf Hacıyevin 100 illik yubileyinin qeyd edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2022-ci ilin may ayında görkəmli Azərbaycan bəstəkarı, SSRİ Xalq artisti Rauf Soltan oğlu Hacıyevin anadan olmasının 100 illiyi tamam olur.

Rauf Hacıyev rəngarəng yaradıcılıq palitrasına malik sənətkar kimi Azərbaycanın musiqi mədəniyyəti tarixində özünəməxsus yer tutur. Müxtəlif janrlarda çox sayda qiymətli əsərlər, o cümlədən simfoniya, oratoriya və kantatalar meydana gətirən bəstəkara uğurlu səhnə təcəssümü tapmış operettaları xüsusilə geniş şöhrət qazandırmışdır. Rauf Hacıyevin milli motivlərlə müasir üslubun vəhdətində yaratdığı vətənpərvər ruhlu lirik mahnılar məşhur ifaçıların repertuarına daxil olmuş və Azərbaycan mahnı janrının inkişafında əhəmiyyətli rol oynamışdır. Onun sənətinin yüksək bədii keyfiyyətləri həmçinin kinofilmlər və teatr tamaşaları üçün bəstələdiyi musiqi lövhələrində aydın təzahürünü tapmışdır. Rauf Hacıyev respublikanın mədəni həyatında yaxından iştirak etmiş və səmərəli ictimai fəaliyyəti ilə tanınmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və görkəmli bəstəkar Rauf



Hacıyevin Azərbaycanda musiqi mədəniyyətinin inkişafında təqdirəlayiq xidmətlərini nəzərə alaraq qərara alıram:

1.Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Xalq artisti Rauf Hacıyevin 100 illik yubileyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

2.Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 13 aprel 2022-ci il*

## О проведении 100-летнего юбилея Рауфа Гаджиева

## Распоряжение Президента Азербайджанской Республики

В мае 2022 года исполняется 100 лет со дня рождения выдающегося азербайджанского композитора, народного артиста СССР Рауфа Солтан оглу Гаджиева.

Как мастер, обладавший разнообразной творческой палитрой, Рауф Гаджиев занимает особое место в истории музыкальной культуры Азербайджана. Композитор, создавший многочисленные ценные произведения в различных жанрах, в том числе симфонии, оратории и кантаты, завоевал широкую славу опереттами, нашедшими успешное сценическое воплощение. Созданные Рауфом Гаджиевым в патриотическом духе лирические песни, сочетающие национальные мотивы и современный стиль, вошли в репертуар известных исполнителей и сыграли важную роль в развитии песенного жанра в Азербайджане. Высокие художественные качества его творчества блестяще проявились и в написанной им музыке к кинофильмам и театральным постановкам. Рауф Гаджиев принимал активное участие в культурной жизни республики и был известен своей плодотворной общественной деятельностью.



Руководствуясь пунктом 32 статьи 109 Конституции Азербайджанской Республики и принимая во внимание заслуживающие одобрения заслуги выдающегося композитора Рауфа Гаджиева в развитии музыкальной культуры в Азербайджане, постановляю:

1.Министерству культуры Азербайджанской Республики подготовить и осуществить план мероприятий, связанных со 100-летним юбилеем народного артиста Рауфа Гаджиева.

2.Кабинету Министров Азербайджанской Республики решить вопросы, вытекающие из настоящего Распоряжения.

**Ильхам Алиев**

*Президент Азербайджанской Республики*

*город Баку, 13 апреля 2022 года.*

## Göstərici haqqında

Azərbaycan musiqi mədəniyyəti tarixində özünəməxsus yer tutan, müxtəlif janrlarda çoxlu sayda qiymətli əsərlər yaradan, böyük Üzeyir bəy Hacıbəylinin ötən əsrin əvvəllərində təməlini qoyduğu bəstəkarlıq məktəbində yetişən görkəmli musiqişünas, ictimai xadim, bəstəkar Rauf Hacıyevin bu il anadan olmasının 100 illiyi tamam olur.

Bununla əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 13 aprel 2022-ci il tarixində "Rauf Hacıyevin 100 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncam imzalamışdır.

Bu münasibətlə M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından "Rauf Hacıyev " adlı biblioqrafiya tərtib etmişdir.

Rauf Hacıyev – Azərbaycan bəstəkarlıq məktəbinin istedadlı nümayəndələrindən biri, simfonik, balet, vokal, instrumental janrlarda çoxsaylı müxtəlif əsərlərin müəllifi, Azərbaycan incəsənətinə bu janrların təşəkkülü və inklişafı prosesində çoxlu yeni və maraqlı səhifələr bəxş etmiş sənətkardır. Bəstəkarın Azərbaycan musiqi sənətinin tarixində mühüm yer tutan yaradıcılığı kiçik vokal miniatürlərdən simfonik teatr janrlı iri əsərlərədək geniş müxtəlifliyə malikdir. Bütün bunlar onun maraq dairəsinin genişliyindən, müxtəlif musiqi janrı və formalarının inkişafına öz töhfəsini vermək səyindən soraq verir.

Azərbaycan Milli Kitabxanasının "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından tərtib etdiyi "Rauf Hacıyev" biblioqrafiyası – bəstəkara həsr olunmuş ilk biblioqrafiyadır. Göstəricidə bəstəkarın həyat və fəaliyyətinin əsas tarixləri, onun görkəmli şəxsiyyətlər haqqında fikirləri, görkəmli şəxsiyyətlərin Rauf





Hacıyev haqqında fikirləri, not əsərləri, səsyazıları və SD-ləri, əlyazmaları, bəstəkarın dövri mətbuatda və məcmuələrdə dərc edilən məqalələri, kinofilmlərə və dram tamaşalarına yazdığı musiqi əsərləri, həyat və yaradıcılığı haqqında dərc olunmuş materiallar, dünya kitabxanalarında və dünya universitet kitabxanalarında görkəmli bəstəkar haqqında olan materiallar öz əksini tapmışdır

Materiallar Azərbaycan, rus və xarici dillər üzrə verilmişdir.

Biblioqrafik göstəricidə materiallar xronoloji prinsip əsasında qruplaşdırılmış, daxildə isə əlifba sırası gözlənilmişdir.

Göstəricidən istifadəni asanlaşdırmaq məqsədilə biblioqrafiyanın sonunda bəstəkarın əsərlərinin və haqqında yazan müəlliflərin əlifba göstəriciləri verilmişdir.

Biblioqrafiya bəstəkarlar, musiqişünaslar, tədqiqatçılar, Azərbaycan Milli Konservatoriyasının, Bakı Musiqi Akademiyasının, musiqi profilli kolleclərin və orta ixtisas musiqi məktəblərinin tələbələri, kitabxanaçılar və musiqi ilə maraqlanan bütün oxucular üçün nəzərdə tutulmuşdur.

Göstərici haqqında rəy və təkliflərini göndərən mütəxəssislərə və oxuculara əvvəlcədən minnətdarlığımızı bildirir, arzu və təkliflərini M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasına göndərmələrini xahiş edirik.

**Ünvan:** AZ-1000, Bakı şəhəri, Xaqani küçəsi, 57.
**E-mail:** contact@anl.az.

## Об указателе

В этом году исполняется 100 лет со дня рождения выдающегося композитора Рауфа Гаджиева, выросшего в композиторской школе, основанной великим Узеир беком Гаджибейли в начале прошлого века, создавшего много ценных произведений в различных жанрах, занявшего особое место в истории азербайджанской музыкальной культуры.

В связи с этим Президент Азербайджанской Республики Ильхам Алиев подписал 13 апреля 2022 года Распоряжение «О праздновании 100-летнего юбилея Рауфа Гаджиева».

С юбилеем композитора Национальная Библиотека Азербайджана имени М.Ф.Ахундова составила библиографию «Рауф Гаджиев» из серии «Выдающиеся деятели Азербайджана».

Творчество Рауфа Гаджиева чрезвычайно многожанрово. Он работал в области музыкального театра, симфонической музыки, кантатно-ораториальных форм, инструментального и вокального творчества. В развитии этих областей он внес немало новых и интересных страниц.

Искусство Рауфа Гаджиева, вбирающие в себя характерные черты нашего времени, пробуждает живой отклик в сердцах слушателей, заражает их своим неиссякаемым оптимизмом, молодостью, любовью к людям.

В библиографии приводятся сведения о нотных изданиях, рукописях композитора, звукозаписях, о произведениях, опубликованных в периодической печати и различных сборниках, высказывания выдающихся деятелей о композиторе, сведения о музыкальных произведениях, написанных им к театральным постановкам и кинофильмам, также





произведения композитора в библиотеках мира и в университетских библиотеках мира.

Литература в библиографии составлена в хронологическом порядке, а внутри соблюдается алфавитный порядок.

Для облегчения читателям поиска, в конце пособия приводится алфавитный указатель произведений великого композитора, а также авторов литературы о нем.

Библиография предназначена для композиторв, музыковедов, исследователей, преподователей и студентов Азербайджанской Государственной Музыкальной Академии, музыкальных колледжей, студентов средних специальных учебных заведений, библиотекарей, а также всех любителей музыки.

Мы заранее выражаем благодарность специалистам и читателям за отзывы, пожелания и предложения. Просим их присылать свои отзывы в Азербайджанскую Национальную Библиотеку имени М.Ф.Ахундова.

**Ünvan:** AZ-1000, Bakı şəhəri, Xaqani küçəsi, 57.
**E-mail:** contact@anl.az.

## Təkrarsız musiqilərin unudulmaz bəstəkarı

Azərbaycan musiqi mədəniyyətinin görkəmli simalarından biri, gözəl bəstəkar və fəal ictimai xadim olan Rauf Hacıyev xalqımızın yaddaşında "Leyla", "Sevgilim", "Mənim Azərbaycanım" və bir sıra məşhur mahnıların müəllifi kimi əbədi yer tutmuş, ürəklərə yol tapmışdır. Rauf Hacıyevin 100 illik yubileyi məhz bu günlərə, daha dəqiq olsaq, 2022-ci ilin 15 mayına təsadüf edir. Bu yazını yubiley günlərində onu bir daha yada salıb ruhunu sevindirmək üçün hazırladıq.

Rauf Hacıyevin zəngin irsi geniş dinləyici kütləsinin rəğbətini qazanmış və bu günə qədər sevilərək bir cox ifaçıların repertuarına daxil olmuşdur. Onun musiqisi klassik musiqi ənənələrinin təməlində yenilik və müasirliyi təcəssüm etdirir. Rauf Hacıyevin yaradıcılığı müxtəlif janrlı əsərlərin ərsəyə gəlməsi ilə əlamətdardır, lakin ana xətt olaraq, səhnə əsərlərini – daha çox musiqili komediyalarını və mahnı yaradıcılığını xüsusi vurğulamaq lazımdır. Çünki yaradıcılığının bu sahəsinin böyük maraqla qarşılandığı və populyarlıq qazanması heç kəsə sirr deyildir. Bəstəkarın müxtəlif illərdə bəstələdiyi mahnıları, operettalardan olan musiqi parçaları dillər əzbəri olmuşdur.

Geniş və hərtərəfli yaradıcı insan olan Rauf Hacıyev, bəstəkarlıqla yanaşı qabaqcıl, fəal ictimai xadim olaraq mədəniyyətin inkişafında böyük işlər görmşdür. O, uzun illər Azərbaycan Dövlət Estrada orkestrinin rəhbəri (1955-1964), Dövlət Filarmoniyasının direktoru (1965), 1965-1972-ci illər ərzində Azərbaycan Respublikasının Mədəniyyət naziri vəzifəsində çalışmışdır. Məhz onun nazir vəzifəsində çalışdığı dövrdə, öz təşəbbüsü ilə Xalça Muzeyi, Mahnı Teatrı yaradılmış, Dövlət





Rəqs Ansamblının və Dövlət Xor Kapellasının fəaliyyətinə yeni təkan verilmişdi. Bütün bunlar Rauf Hacıyevin mədəniyyətimizin inkişafına mühüm töhfələrinin yalnız bir qismidir.

Rauf Hacıyev uşaq yaşlarından yaradıcı mühitdə olmuş, bu ovqatda böyüyüb boya-başa çatmışdır. Onun musiqiçi və bəstəkar kimi formalaşıb inkişaf etməsinə ailəsindəki ab-hava və Azərbaycan mədəniyyətinin tanınmış simaları ilə ünsiyyətdə olması böyük təsir göstərmişdir. Atası vaxtilə ustad tarzən Qurban Pirimovdan dərs alaraq gözəl tar çalarmış, anası isə müəllim olub və eyni zamanda məlahətli səsi varmış. Daima anasının xalq mahnıları ifa etməsi Rauf Hacıyevdə xalq musiqisinə məhəbbət oyatmışdır. Eyni zamanda anasının Həsən bəy Zərdabinin nəslindən olması, birbaşa təhsilin və mədəniyyətin inkişafında böyük işlər görmüş bu tanınmış ailədə böyüməsi onun dünyagörüşünün genişlənməsində önəmli rol oynamışdır. Kiçik yaşlarından ciddi şəkildə musiqi ilə məşğul olan Rauf Hacıyevin fortepiano üzrə müəllimi professor Kövkəb Səfərəliyeva gənc bəstəkara ifaçılıq sənətinin bütün incəliklərini öyrətmişdir. Bu illərdə Rauf Hacıyev paralel olaraq bəstəkarlıqla da məşğul olmuş və fortepiano üçün ilk əsərləri -"Tarantella", "Dağıstan", "Qaytağı" pyeslərini, "Mingəcevir", "Samur", "Gənclik marşı" kimi vokal əsərlərini bəstələmişdir.

1948-ci ildə Rauf Hacıyev Azərbaycan Dövlət Konservatoriyasına daxil olmuşdur. Daha sonra bir illiyə P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasına köçürülmüş və ardınca təhsilini Bakıda davam etdirmişdir. Tələbəlik illərində Rauf Hacıyevin bəstələdiyi əsərlərdən maestro Niyazi ilə birgə "Kolxoz səhəri" (1949) vokal-simfonik süitasını və "Bahar" kantatasının (1950, S.Vurğun, S.Rüstəm və M.Rahimin şeirlərinə) adlarını qeyd etmək olar. Dahi Qara Qarayevin sinifində bəstəkarlıq ixtisasına yiyələnən Rauf Hacıyevin əsərlərinə, əlbəttə ki, müəlliminin təsiri hiss olunurdu. Bunu əsasən iri həcimli əsərlərin üslubunda, yazı texnikasında və təfsirində müşahidə etmək olar.

1952-ci ildə tamamlanan "Violin və simfonik orkestr üçün konsert" (d-moll), Konservatoriyanı bitirdiyi ildə diplom işi kimi təqdim etdiyi "Gənclik simfoniyası" buna misaldır.

1950-ci illərdə o, mahnılar, instrumental əsərlər, xalq mahnı və rəqslərinin işləmələrini yazır. Bütün aşiqlərin, məhəbbət hissini yaşayan gənclərin dillər əzbəri olan, Ə.Əlibəylinin sözlərinə bəstələnən məşhur "Sevgilim" mahnısı məhz bu illərin məhsuludur. Bəstəkarın ictimai fəaliyyətinin başlanğıc dövründə - 1949-1956-ci illərdə bədii rəhbər olaraq "Vətən" kinoteatrının estrada orkestrində çalışması böyük əhəmiyyət kəsb edən məqam kimi qeyd olunmalıdır. Çünki məhz bu kollektiv əsasında 1955-56-ci illərdə M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyası nəzdində böyük estrada orkestri yaradılmışdı. Beləliklə Rauf Hacıyevin böyük estrada orkestrinin yaranması təşəbbüsü olduqca təqdirəlayiq addım olmuşdu. Orkestrin ilk konserti 1956-ci il 15 iyun tarixində baş tutmuş və bu konsertdən sonra gözəl musiqi kollektivi "Azərbaycan Dövlət Estrada Orkestri" adlanmışdır. Rauf Hacıyev 1964-cü ilə qədər orkestrin baş dirijoru və bədii rəhbəri kimi çalışmış və bu illər ərzində maraqlı çıxışlarla olduqca böyük nailiyyətlər əldə etmişdir. Bəstəkarın estrada orkestrinin konsertlərində ifa olunmaq üçün nəzərdə tutulmuş truba, saksafon, akkardeon üçün solo konsert nömrələri - "Çahargah" muğam-miniatürü, "Karvan", "Üç palma" əsərləri, orkestr üçün xalq musiqi nümunələri əsasında "Azərbaycan rapsodiyası", "Azərbaycan melodiyaları", "Fantaziya" adlanan improvizasiyaları, "Qaytağı", "Üç dost rəqsi", “Məzəli rəqs” kimi rəqs süitaları və digər xoreoqrafik səhnələr məhz bu illərə aiddir. Estrada orkestrinin və onun rəhbəri Rauf Hacıyevin fəaliyyəti, dövlət tərəfindən müxtəlif mükafat və təltiflərə layiq görülərək yüksək qiymətləndirilmişdir. Beləliklə, ölkədə mədəni tərəqqi uğrunda, Azərbaycan musiqi sənətinin inkişafı naminə fəaliyyətinə görə 1960-ci ildə Rauf Hacıyev Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdü.





Rauf Hacıyevin zəngin vokal yaradıcılığında Ə.Əlibəylinin sözlərinə yazılmış "Mənim Azərbaycanım" mahnısı bəstəkarın qəhrəmani-patriatik mövzulu mahnılarının ən gözəl nümunəsidir. Burada doğma Vətənimiz insanın ən yüksək hissləri ilə təfsir edilərək vəsf olunmuşdur. Rauf Hacıyevin Bakıya həsr olunmuş çox saylı mahnılarında da patriotik hisslər və yüksək emossionallıq üstünlük təşkil etmişdir. Süleymn Rüstəmin sözlərinə yazılmış "Bakı haqqında mahnı" geniş dinləyici kütləsinin rəğbətini qazanan əsərdir. Həmçinin, "Bakı skamyaları", "Bakı küləyi", "Bakı vağzalında", "Bizim Bakı" mahnıları da əziz şəhərimizi tərənnüm edən mahnı nümunələrindəndir.

1950-60-cı illərdə Rauf Hacıyev səhnə əsərlərinə müraciət edmişdir. Onun partituraları rəngarəng orkestr epizodları, zəngin rəqs və mahnı nömrələrindən ibarətdir. Musiqili komediya janrına müraciət etməklə bəstəkar, Üzeyir Hacıbəyli tərəfindən əsası qoyulmuş milli musiqili teatr ənənələrinə arxalanmışdır. Bəstəkarın ilk uğur gətirən operettası "Qonşular" 1960-cı ildə yaranmışdı. Bu əsər ilə Rauf Hacıyev musiqili komediya janrının yeni mərhələsini yaratmış olur. Daha sonra bəstəkar operettada bir sıra dəyişikliklər edərək əsəri - "Romeo-mənim qonşumdur" adı ilə təqdim edir. Həmçinin, bəstəkar özünün məşhur "Sevgilim" mahnısını məhəbbət mövzusunun leytmotivi mənasında əsərin partiturasına əlavə edir. C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında 1963-cü ildə Rauf Hacıyevin eyniadlı operettasının motivləri əsasında rejissor Şamil Mahmudbəyov tərəfindən "Romeo-mənim qonşumdur" adlı film çəkilmişdir. Rauf Hacıyevin operetta janrında yazdığı əsərlərdən "Kuba - məhəbbətim mənim", "Dördüncü fəqərə", "Ana, mən evlənirəm", "Yolayrıcında" və digərlərini də qeyd etmək olar.

Rauf Hacıyev simfoniya, kantata, oratoriya və balet janrlarına da müraciət etmişdir. Bu illərin simfonik musiqisində bəstəkarın marağını daha çox nisbətən lakonik formalar cəlb edir. Buna kamera orkestri üçün "Poema-ekspromt" və görkəmli

dramaturqa ithaf olunan "Cəfər Cabbarlının xatirəsinə" adlı əsərləri misal çəkə bilərik.

Rauf Hacıyev "Əhməd hardadır", "Mən rəqs edəcəyəm", "Bir qalanın sirri", "Qaraca qız", "Kölgələr sürünür", "Qara daşlar" və sair filmlərə musiqi bəstələmişdir. 1970-ci illər Rauf Hacıyevin yaradıcılığında daha çox ictimai fəaliyyəti ilə əlamətdar olmuşdur. Bu illərdə böyük bir yaradıcı heyətə rəhbərlik edərək Əlcəzairə təhsil və musiqinin inkişaf etdirilməsi üçün səfər etmiş və uğurlu işlər görmüşdür. Orada bəstəkar Əlcəzair Mədəniyyət Nazirliyinin sifarişi ilə "Üç inqilab", "Alov" və "Hürriyyət" baletlərini ictimaiyyətə təqdim etmişdir. 1978-ci ildə bəstəkar SSRİ Xalq artisti fəxri adına layiq görülmüşdür.

Musiqinin, demək olar ki, bütün janrlarını öz yaradıcılığında əhatə edən bəstəkar ömrünün 73-cü ilində - 1995-ci il sentyabrın 19-da dünyasını dəyişərək əbədiyyətə qovuşmuşdur.

Rauf Hacıyevin geniş, zəngin və rəngarəng yaradıcılığını nəzərdən keçirib belə bir nəticəyə gəlmək olar ki, onun əsərləri və gördüyü gözəl işlər milli mədəniyyətimizin parlaq nümunələrindəndir.

**Leyla Quliyeva,**
*Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent*





## Rauf Hacıyevin həyat və fəaliyyətinin əsas tarixləri

***Rauf Hacıyev 1922-ci il mayın 15-də Bakı şəhərində anadan olmuşdur.***

**1929** – Ümumtəhsil məktəbinə daxil olmuş, eyni zamanda paralel şəkildə musiqi ilə də məşğul olmuşdur.

**1938** – Üzeyir Hacıbəylinin məsləhəti ilə Bakı musiqi məktəbinin nəzəri-bəstəkarlıq şöbəsinə daxil olmuşdur.

**1940** – Rauf Hacıyevin “Respublika Gənclər Festivalı”na təqdim olunmuş ***“Gənclik mahnısı”*** birinci dərəcəli mükafata layiq görülmüşdür;
– Gənclərin həyatına həsr olunmuş ***“Tələbələrin kələyi”*** (librettosu M.Mərdanovundur) musiqili komediyasını yazmışdır;

**1941** – Azərbaycan Dövlət Konservatoriyasına (indiki Musiqi Akademiyası) daxil olmuşdur;
– Bakı kinostudiyasında böyük Azərbaycan şairi Nizami Gəncəvinin anadan olmasının 800 illik yubileyi münasibətilə çəkilən “***Nizami”*** qısametrajlı sənədli filmə (rej.: A.Naroditski) Rauf Hacıyev musiqi bəstələmişdir.

**1942-1944** – Böyük Vətən müharibəsi illərində könüllü olaraq sovet ordusu sıralarında xidmət etmişdir;

– Qafqazın müdafiəsi uğrunda gedən döyüşlərdə 402-ci atıcı diviziyasında vuruşmuş və döyüşlərin birində yaralanaraq ordudan tərxis olunmuşdur.

**1944-1948** – Azərbaycan SSR Daxili İşlər Nazirliyi nəzdində fəaliyyət göstərən estrada ansamblının rəhbəri vəzifəsində çalışmışdır.

**1948** – Azərbaycan Dövlət Konservatoriyasından P.İ.Çaykovski adına Moskva Konservatoriyasına keçirilmişdir.

**1948-1949** – P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasında oxuyarkən, professor Nikolay Rakovun sinfində bəstəkarlıqdan, həm də orkestrləşdirmədən dərs almışdır.

**1949** – Bəstəkar ailə vəziyyəti ilə əlaqədar olaraq Moskva Konservatoriyasında cəmi bir il təhsil almış və Bakıya qayıtmağa məcbur olmuşdur. Onun sonrakı təhsil illəri Azərbaycan Dövlət Konservatoriyası ilə bağlı olmuşdur;
– Maestro Niyazi ilə birlikdə solist, xor və simfonik orkestr üçün ***"Kolxoz süitası"***nı yazmışdır.

**1949-1956** – Bakıdakı "Vətən" kinoteatrında "Salon orkestri" kimi tanınan kollektivə rəhbərlik etmişdir.

**1950** –Azərbaycanda Sovet hakimiyyəti qurulmasının 30 illiyinə münasibətilə Səməd Vurğunun, Süleyman Rüstəmin və Məmməd Rahimin





sözlərinə ***"Bahar" kantatasını*** yazmışdır. Kantata ilk dəfə bu əlamətdar tarixi hadisənin bayram edildiyi gün özünün dirijorluğu ilə ifa olunmuşdur.

**1952** –***"Violin və orkestr üçün konsert"*** əsərini yazmışdır. İşığa, sevincə bürünmə, sirayətedici lirizm, ritm kəskinliyi, incə milli kolorit – əsərin əsasını təşkil etmişdir;
– Ənvər Əlibəylinin sözlərinə ***"Sevgilim"*** mahnısını bəstələmişdir.

**1953** – Professor Qara Qarayevin kompozisiya sinfi üzrə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasını bitirmişdir;
– Konservatoriyanı bitirdiyi ildə bəstəkar diplom işi kimi ***"Gənclik simfoniyası"***nı təqdim etmişdir. Əsərdə bəstəkarın həyat haqqında düşüncələri öz təcəssümünü tapmış, onun vətənpərvərlik hissləri, vətənə məhəbbəti əks olunmuşdur;
– ***"Gənclik simfoniyası"*** Niyazinin rəhbərliyi ilə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri tərəfindən ilk dəfə bəstəkarın buraxılış imtahanında ifa olunmuşdur;

**1953-1956** – Konservatoriyanı bitirdikdən sonra Qara Qarayevin bəstəkarlıq sinfində assistent kimi çalışmışdır;
– ***"Rəqs lövhələri"*** əsərini yazmışdır.

**1955** – Librettosu A.Xandəmirovaya məxsus ***"Aşıq Qərib"*** baleti üzərində işləməyə başlamışdır.

(Təəssüf ki, bu balet başa çatdırılmamış, bəstəkar baletin yalnız iki aktını yazmışdır.)

**1955-1964** – "Azərbaycan Dövlət Estrada Orkestri"nə rəhbərlik etmişdir;

**1956** – ***May ayının 15-də*** caz orkestrini yaratmışdır;
– ***İyunun 15-də*** "Azərbaycan Dövlət Estrada Orkestri"nin ilk konserti olmuşdur;
–Respublikada keçirilən Azərbaycan bəstəkarlarının I qurultayında bəstəkarın "Gənclik marşı" ifa olunmuşdur.
–Bakı kinostudiyasında çəkilmiş ***"Qara daşlar"*** kinopovestinə musiqi bəstələmişdir (qur. rej.: Ağarza Quliyev, ssen.müəl.: Mehdi Hüseyn).

**1957** –Bülbülün anadan olmasının 60 illiyi münasibətilə "Onu hamı sevir" adlı məqaləsi "Ədəbiyyat və incəsənət" qəzetində dərc olunmuşdur;
– Rəhbərlik etdiyi "Azərbaycan Dövlət Estrada Orkestri" Moskvada keçirilən VI Ümumdünya Gənclər Festivalının iştirakçısı olmuşdur;
– Böyük Oktyabr Sosialist inqilabının 40 illiyinə həsr edilmiş, Hüseyn Abbaszadənin sözlərinə ***"Azadlıq dastanı"*** oratoriyasını yazmışdır;
– ***"Vətən haqqında"*** adlı mahnı bəstələmişdir;
– Bakı kinostudiyasında çəkilmiş ***"Səadət və əmək mahnıları"*** qısametrajlı sənədli filminə musiqi bəstələmişdir (rej.: Seyfulla Bədəlov).

**1958** – Bakı kinostudiyasında çəkilmiş ***"Kölgələr sürünür"*** macəra filminə musiqi bəstələmişdir





(qur. rej.: İsmayıl Əfəndiyev, Şüa Şeyxov, ssen. müəl.: Qılman Musayev);
– Bakı kinostudiyasında çəkilmiş ***"Onun 150 yaşı var"*** qısametrajlı sənədli filminə musiqi bəstələmişdir (rej.: Şamil Mahmudbəyov).

**1959** – İyunun 10-da SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə Moskva şəhərində keçirilmiş Azərbaycan incəsənəti və ədəbiyyatı ongünlüyündə fəal iştirakına görə (Azərbaycan Dövlət Estrada Orkestrinin bədii rəhbəri kimi) "***Qırmızı Əmək Bayrağı"*** ordeni ilə təltif olunmuşdur;
– "Azərbaycanfilm" kinostudiyasında çəkilmiş ***"Bir qalanın sirri"*** filminə musiqi bəstələmişdir (rej. və qur. rəs.: Əlisəttar Atakişiyev, ssen.müəl.: Məmmədhüseyn Təhmasib);
– ***"Azərbaycan mədəniyyətinin baharı"*** filminə musiqi bəstələmişdir. (rej.: Cavanşir Məmmədov, Xan Babayev)
– ***"Moskva haqqında mahnı", "Salam, Moskva"*** əsərlərini bəstələmişdir;
– Rəhbərlik etdiyi Azərbaycan Dövlət Estrada Orkestri ikinci Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyünün iştirakçısı olmuşdur.

**1960** – Azərbaycan Sovet Sosialist Respublikasının və Azərbaycan Kommunist Partiyasının 40 illiyi ilə əlaqədar olaraq mədəni quruculuq sahəsində qazanılmış müvəffəqiyyətlərə görə "***Əməkdar incəsənət xadimi"*** fəxri adı verilmişdir;
– İyunda Bakıda Ş.Qurbanov adına Musiqili Komediya Teatrında bəstəkarın ***"Qonşular"*** operettasının premyerası keçirilmişdir;

– ***"Romeo mənim qonşumdur"*** operettasını yazmışdır;
– Dekabrın 13-də ***"Romeo mənim qonşumdur"*** operettası ilk dəfə Moskva Operetta teatrının səhnəsində tamaşaya qoyulmuşdur;
– Azərbaycan SSR Nazirlər Kabinetinin 15 sentyabr 751 saylı qərarı ilə Bakı şəhərinin Nizami rayonu N.Abbasov küçəsində yerləşən 15 nömrəli onbirillik Musiqi məktəbinə Rauf Hacıyevin adı verilmişdir.

**1961** – Nəbi Xəzrinin sözlərinə ***«Doğma partiya"*** mahnısını bəstələmişdir;
– Əliağa Kürçaylının sözlərinə ***"Kolxoz çöllərində"*** lirik kantatasını yazmışdır;

**1962** – Xalq rəqslərinin ritmləri əsasında ***"Xoreoqrafik süita"*** bəstələmişdir;
– "Azərbaycanfilm" kinostudiyasında çəkilən məşhur rəqqas Mahmud Esembayevə həsr olunmuş ***"Mən rəqs edəcəyəm" ("Əmək və qızılgül")*** filminə musiqi bəstələmişdir (rej.:Tofiq Tağızadə, ssen.müəl.: İdris Bazorkin).

**1963** – ***"Romeo mənim qonşumdur"*** operettası "Azərbaycanfilm" kinostudiyasında rejissor Şamil Mahmudbəyov tərəfindən ekranlaşdırılmışdır;
– Bəstəkarın rəhbərlik etdiyi Azərbaycan Dövlət Estrada Orkestri Kremlin Qurultaylar Sarayında keçirilən Azərbaycan incəsənət ustalarının konsertinin iştirakçısı olmuşdur;
– Fevralın 27-də Latviya SSR Dövlət Musiqili





Komediya Teatrının solisti, əməkdar artist Marina Stanislavovna Zirdzinin yubiley gecəsində bəstəkarın "***Romeo mənim qonşumdur"*** operettası göstərilmişdir;
– Noyabrın 22-də Stefan Makedonski Milli Musiqi Teatrının (Sofiya) səhnəsində bəstəkarın ***"Romeo mənim qonşumdur"*** operettasının premyerası olmuşdur;
– Noyabrın 24-də Moskva Operetta Teatrının səhnəsində ***"Romeo mənim qonşumdur"*** operettanın 100-cü tamaşası oynanılmışdır;
– Dekabrda Moskva Dövlət Opera və Balet Teatrının səhnəsində Rauf Hacıyevin Vyaçeslav Yesmanın librettosuna yazdığı "***Mənim məhəbbətim-Kuba"*** adlı operettasının premyerası olmuşdur;
– Bakıda qastrol səfərində olan Kiyev Dövlət Musiqili Komediya Teatrı bəstəkarın ***"Romeo mənim qonşumdur"*** operettasını ifa etmişdir;
– "Azərbaycanfilm" kinostudiyasında çəkilmiş ***"Əhməd haradadır?"*** musiqili kinokomediyasına musiqi bəstələmişdir (rej.: Adil İsgəndərov, ssen.müəl.: Sabit Rəhman);
– Məşhur kubalı dirijor Enriko Mantiçi Bakıda Rauf Hacıyevin qonağı olmuşdur.

**1964** – Azərbaycanın Rusiyanın tərkibinə daxil olmasının 150 illiyi ilə əlaqədar olaraq Rauf Soltan oğlu Hacıyevə (Azərbaycan Dövlət Estrada orkestrinin rəhbəri, bəstəkar) ***Azərbaycan SSR Xalq artisti adı*** fəxri adı verilmişdir;

– Yanvar ayında Moskva Dövlət Operetta teatrında bəstəkarın ***"Mənim məhəbbətim – Kuba"*** operettasının tamaşası göstərilmişdir;
– Mayın 18-də Azərbaycan televiziyasında bəstəkarın ***"Dördüncü fəqərə"*** televiziya tamaşasının premyerası olmuşdur;
– ***"Romeo mənim qonşumdur"*** operettasının premyerası Polşanın Qdınsk şəhərinin Musiqili Komediya teatrında olmuşdur;
– İlin sonunda bəstəkar Azərbaycan Dövlət Orkestrindəki işini tərk etmiş, lakin kollektivlə yaradıcılıq fəaliyyətini davam etdirmişdir. Sovet İttifaqında və xaricdə qastrol səfərlərində olmuş, orkestr üçün daima yeni mahnılar yazmağa davam etmişdir;
– Bəstəkar kantata-oratoriya janrında xalqlar dostluğunu tərənnüm edən, Hüseyn Abbaszadənən sözlərinə yazılmış ***"Həmişə birlikdə"*** oratoriyasını yazmışdır. Bu oratoriya əlamətdar bayrama – Azərbaycan və Rusiya xalqlarının dostluğuna həsr edilmiş təntənəli gecədə Leo Ginzburqun dirijorluğu ilə ifa edilmişdir.

**1964-1965** – Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının direktoru vəzifəsində çalışmışdır.

**1965** – Böyük Vətən müharibəsində qələbənin 20 illiyi münasibətilə "1941-1945-ci illər Böyük Vətən müharibəsində qələbənin 20 illiyi" yubiley medalı ilə təltif edilmişdir;
– Polşanın Lodzi, Qlivitse şəhərlərinin Musiqili Komediya teatrlarında ***"Romeo – mənim qonşumdur"*** operettası göstərilmişdir;
– Polşa, Bolqarıstan, Macarıstanda ***"Kuba – məhəbbətim mənim"*** operettasının premyerası keçirilmişdir;
– Azərbaycanın görkəmli klassik bəstəkarı Müslüm Maqomayevin xatirəsinə həsr etdiyi musiqi lövhələrindən ibarət ***"Poema-ekspromt"*** əsərini bəstələmişdir;
– "Kitabxana işini günün tələbləri səviyyəsinə qaldıraq" məqaləsi "Kitablar aləmində" jurnalında çap olunmuşdur;
– Azərbaycan Dövlət Nəşriyyatında Aida Tağızadənin bəstəkara həsr olunmuş "Rauf Hacıyev" monoqrafiyası çap olunmuşdur.





**1965-1971** – Azərbaycan Respublikasının Mədəniyyət naziri vəzifəsində çalışmışdır. Bu vəzifədə çalışdığı illərdə Rauf Hacıyevin təşəbbüsü ilə Azərbaycan Dövlət Xor Kapellası, Mahnı Teatrı, Azərbaycan Dövlət Rəqs Ansamblı, eləcə də dünyada birinci olan Xalçaçılıq Muzeyi açılmışdır.

**1966** – "Azərbaycanfilm" kinostudiyasında istehsal edilmiş S.S.Axundovun "Qaraca qız" filminə musiqi bəstələmişdir (qur. rej.: Şamil Mahmudbəyov, ssen.müəl.: İosif Prut, Şamil Mahmudbəyov);
– Polşanın Krakov şəhərinin Musiqili Komediya teatrında ***"Romeo-mənim qonşumdur"*** operettası göstərilmişdir;
– Rauf Babaxanovun sözlərinə yazılmış ***"Azərbaycan buketi"*** lirik kantatasını bəstələmişdir;

– Mart ayında Estoniyanın "Vanemuyne" teatrında "***Mənim məhəbbətim – Kuba***" operettasının tamaşası olmuşdur (operettanı Epp Kaydu səhnələşdirmişdir);
– Azərbaycan neftçilərinə, onların qəhrəmanlıqlarına, iş həyatına həsr olunmuş ***"Qayadakı işarə"*** sirk tamaşasına musiqi bəstələmişdir. Tamaşanın premyerası Simferopol şəhərində baş tutmuşdur (rej.: S.Dadaşov, M.Cəbrayılova, L.Kukso, E.Ryabnikov).

**1967** – "Azərbaycanfilm" kinostudiyasında çəkilmiş ***"Torpaq, dəniz, od, səma"*** kinofilminə musiqi bəstələmişdir (qur. rej.: Şamil Mahmudbəyov, ssen. müəl.: Anar).
– Əməkdar incəsənət xadimi, professor Elmira Abbasovanın bəstəkara həsr olunmuş "Rauf Hacıyev" monoqrafiyası "Azərnəşr"də çap olunmuşdur.

**1968** – İsmayıl Dadaşovun sözlərinə "Ceyran" mahnısını bəstələnmişdir.

**1969** –***"Təbəssümünü gizlətmə"*** operettasını yazmışdır (librettosu: Vyaçeslav Yesman).
– İyulun 29-da Moskva Operetta Teatrında bəstəkarın ***"Qafqazlı qardaşqızı"*** adlı yeni musiqili komediyasının premyerası olmuşdur;
– ***"Ləzgihəngi","Yallı"*** miniatür baletlərini yazmışdır;
– Bəstəkarın balet süitası ***"Ləzgihəngi"*** (qur. baletmeysterlər – R.Axundova və M.Məmmədov) Parisdə və Fransanın bir çox şəhərlərində,





eləcə də Lüksemburq və Monakoda göstərilmiş, həmçinin Parisdəki VII beynəlxalq festivalda böyük müvəffəqiyyətlə ifa edilmişdir;
– Kamera orkestri üçün ***"Cəfər Cabbarlının xatirəsinə"*** həsr olunmuş poema yazmışdır.

**1970** – Yanvarın 11-də Nalçikdə rejissor Əli Usubovun quruluşunda Rauf Hacıyevin ***"Qafqazlı qardaşqızı"*** operettasının premyerası olmuşdur;
– Azərbaycanın 50 illiyinə həsr olunmuş təntənəli konsertdə bəstəkarın "Yallı" miniatür baletinin premyerası baş tutmuşdur;
– Noyabrda V.İ.Leninin anadan olmasının 100 illiyinə həsr olunmuş konsertdə bəstəkarın ***"Yallı"*** miniatür baletinin premyerası olmuşdur;
– Rauf Atakişiyev və Vyaçeslav Yesmanın sözlərinə yazılmış ***"Lenin"*** mahnısını bəstələmişdir;
– Moskva Operetta Teatrında 100-cü dəfə bəstəkarın ***"Qafqazlı qardaşqızı"*** operettası böyük uğurla nümayiş etdirilmişdir;

**1971** – SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə – ***"Şərəf nişanı"*** ordeni ilə təltif edilmişdir;
– Fin yazıçısı Marti Larninin əsəri əsasında ***"Dördüncü fəqərə"*** adlı yeni operetta bəstələmişdir;

**1971-1979** –Mədəniyyət qrupunun rəhbəri kimi Əlcəzair Xalq Demokratik Respublikasında səfərdə olmuşdur. Bəstəkar Əlcəzairdə musiqi təhsili, milli musiqi kadrlarının yetişdirilməsi sahəsində çox səmərəli işlər görmüşdür. Burada bəstəkar

Əlcəzair Mədəniyyət Nazirliyinin sifarişi ilə ***"Üç inqilab", "Alov", "Hürriyyət"*** baletlərini yazmışdır.

**1972** – Noyabrda bəstəkarın ***"Təbəssümünü gizlətmə"*** operrettası Polşada Qdınya-Qdansk şəhərinin Musiqili Komediya Teatrının səhnəsində göstərlmişdir;
– Əlcəzairdə görkəmli bəstəkarın 50 illik yubileyi keçirilmişdir;
– ***"Azərbaycan süitası"*** birpərdəli baletini bəstələmişdir;

**1973** – Əlcəzair Mədəniyyət Nazirliyinin sifarişi ilə ***"Üç inqilab"*** – Əlcəzairin ilk milli baletini bəstələmişdir. Əsərin premyerası noyabrda, Əlcəzairin Milli Azadlıq bayramı günü münasibətilə göstərilmişdir. Əsərdə əsarətdən azad olmuş Əlcəzair xalqının yeni həyat quruculuğuna qədəm qoymasından söz açılmışdır. Baletin Əlcəzairdə müvəffəqiyyətli tamaşalarından sonra o, Milli Teatrın qastol proqramına daxil edilmişdir.
– Belarus Opera və Balet Teatrında ***"Dördüncü fəqərə"*** operettasının tamaşası göstərilmişdir.

**1974** – Aprel ayında Böyük Opera və Balet Teatrında (Minsk) ***"Dördüncü fəqərə"*** tamaşasının premyerası olmuşdur.

**1976** – Əlcəzairdə ikinci ***"Alov"*** baletini yazmışdır. Baletin premyerası noyabr ayında olmuş və Əlcəzair tamaşaçılarının rəğbətini qazanmışdır;





– ***"Alov"*** baletinin truppası Əlcəzair şəhərləri ilə yanaşı Tunis, Mərakeş, Paris, Timqad, Tizi-uzuda müxtəlif qastrollarda, festivallarda çıxış etmişdir.
– ***"Alov"*** baleti Kubada Havanada keçirilən XI Beynəlxalq Gənclər Festivalında nümayiş etdirilmişdir;
– ***"Alov"*** baleti YUNESKO-nun XX sessiyasında nümayiş etdirilmişdir;
– El Hadi Şərif ilə birgə ***"Alov"*** baleti üçün libretto yazmışlar;
– Şair Fikrət Sadığın sözlərinə yazılmış ***"And içirik"*** kantatasını yazmışdır.
– Xalq şairi Səməd Vurğunun anadan olmasının 70 illiyi ilə əlaqədar ***"Səməd Vurğun"*** kantatasını yazmışdır. Xor, orkestr və solistlər üçün yazılmış oratoriyanın mətn əsasını şairin müxtəlif şeirləri təşkil edir;
– ***"Ana, mən evlənirəm"*** operettasını yazmışdır (Libretto Vyaçeslav Yesman);
– Avqust ayında Moskva Operetta teatrında bəstəkarın ***"Ana mən evlənirəm"*** operettasının ilk tamaşası göstərilmişdir;
– ***"Azərbaycan elləri"*** qısametrajlı sənədli-musiqili televiziya filmində (rej.: Nazim Dadaşov) bəstəkarın ***"Azərbaycanım"*** mahnısı səslənmişdir.

**1977** – Mayın 19-da Əlcəzair teatrında Rauf Hacıyevin ***"Əl-ləhib"*** ("Alov") baletinin ilk tamaşası göstərilmişdir;
– Viktor Tatarinovun sözlərinə bəstələnmiş ***"Kommunist haqqında poema"*** kantatasını yazmışdır;

– *"Azərbaycantelefilmdə"* Arif Qazıyevin rejissorluğu ilə Leonid İliç Brejnevə həsr olunmuş ***"Kommunist haqqında poema"*** bioqrafik filmi çəkilmişdir.

**1978** – SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə görkəmli bəstəkara ***SSRİ Xalq artisti*** fəxri adı verilmişdir;
– Üçüncü Əlcəzair baleti olan ***"Hürriyyət"***-i yazmışdır. Əsərdə Əlcəzairin bu günündən, yeni həyat quruculuğundan bəhs edilmişdir;
– Fevral 23-də Sovet Ordusu bayramı günü bəstəkarın ***"Kommunist haqqında poema"*** əsərinə həsr olunmuş televiziya filmi respublika televiziyası ilə göstərilmişdir;
– İyulun 28-də ***"Alov"*** baleti Havanada keçirilən XI Beynəlxalq Gənclər Festivalında nümayiş etdirilmişdir.

**1979** – Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin birinci katibi seçilmişdir;
– Əlcəzairdə bəstəkarın ***"Hürriyyət"*** adlı baletinin ilk tamaşası göstərilmişdir.

**1980** – Bəstəkar ***Skripka və fortepiano üçün sonata*** kamera-instrumental musiqisini bəstələmişdir;

**1981** – Şıxəli Qurbanov adına Musiqili Komediya Teatrında bəstəkarında ***"Qafqaz əsiri", "Yolayrıcı"*** operettalarının premyerası baş tutmuşdur.
– Səməd Vurğunun sözlərinə bəstəlnmiş ***"Moskva"*** kantatasını yazmışdır.

**1982** – SSRİ Ali Soveti Rəyasət heyətinin Fərmanı ilə bəstəkar ***Lenin ordeni*** ilə təltif edilmişdir;





– ***"Kommunist haqqında poema"*** vokal-simfonik əsəri və Azərbaycanda Sovetlər hakimiyyətinin qələbəsi uğrunda inqilabi mübarizənin qəhrəmanlıq səhifələrini göz önündə canlandıran ***"Yol ayrıcı"*** operettasına görə fəxri mükafata – ***A.V.Aleksandrov adına gümüş medala*** layiq görülmüşdür;
– Moskva Operetta Teatrının səhnəsində Y.Petrov, Fuad Hacıyev və Zəminə Hacıyevanın quruluşunda bəstəkarın ***"Yol ayrıcında"*** (lib. Vyaçeslav Yesman, dirijor: Elmar Abusalimov) tamaşasının premyerası böyük uğurla keçmişdir. Operetta Bakı, Novosibirsk, Çerkas teatrlarının səhnələrində də tamaşaya qoyulmuşdur;
– Ukrayna radiosunda bəstəkarın yaradıcılıq bioqrafiyasından bəhs edən veriliş yayımlanmışdır;
– Azərbaycan dramaturqu və şairi Hüseyn Cavidin eyni adlı əsəri əsasında ***"Şeyx Sənan"*** simfonik poemasını yazmışdır;
–"Azərbaycantelefilmdə" rejissor Arif Qazıyevin rejissorluğu ilə ***"Bəstəkar Rauf Hacıyev"*** qısametrajlı sənədli televiziya filmi çəkilmişdir**.**

**1983** – Azərbaycan yazıçısı Mirzə Fətəli Axundova həsr olunmuş ***"Səbuhi"*** simfonik poemasını yazmışdır.
– Azərbaycan televiziyasında Arif Qazıyevin rejissorluğu ilə ***"Bəstəkar Rauf Hacıyev"*** filminin ilk tamaşası göstərilmişdir;
–Emiliya Mirzoyevanın bəstəkara həsr olunmuş ***"Rauf Hacıyev"*** adlı monoqrafiyası "İşıq" nəşriyyatında çap olunmuşdur.

**1984** –Şəkər Aslanın sözlərinə bəstələnmiş ***"Vətən"*** kantatasını yazmışdır;
– Sovet İttifaqı Qəhrəmanı ***Həzi Aslanova həsr olunmuş*** simfonik poemasını yazmışdır;
– Ulyanovskda Lenin adına Memorial Kompleksin böyük zalında bəstəkarın ***müəllif gecəsi*** keçirilmişdir.

**1985** – Görkəmli bəstəkar Üzeyir Hacıbəylinin 100 illiyi ilə əlaqədar Azərbaycan Televiziya və Radio Verilişləri Şirkətinin sifarişi ilə ***"Ordan-burdan"*** adlı operettasını yazmışdır;
– Klassik musiqi bəstəkarı, pianoçu D***imitri Şostakoviçə həsr olunmuş poema*** yazmışdır. Burada müəllifin sənətkarla bağlı, onun zəngin obrazlar dünyası haqqında düşüncələri verilmişdir.

**1986** – Moskvada SSRİ bəstəkarlarının VII qurultayının işi zamanı bəstəkarın ***"Мир"*** sonatasının rəsmi premyerası olmuşdur;
– Fevralda Bakıdakı 189 nömrəli məktəbdə bəstəkar "***Sülh və dostluq melodiyaları"*** adlı açıq musiqi dərsi keçirmişdir.

**1987** – Yanvarın 1-də Azərbaycan televiziyasında ***"Ordan- burdan"*** tamaşası göstərilmişdir**.**

**1988** – Emiliya Mirzoyevanın bəstəkara həsr olunmuş "Rauf Hacıyev" adlı monoqrafiyası Moskvanın "Sovetskiy kompozitor" nəşriyyatında çap olunmuşdur.





**1993** – Ramiz Zöhrabovun bəstəkara həsr olunmuş "Rauf Hacıyev" adlı monoqrafiyası "Şur" nəşriyyatında nəşr olunmuşdur.

**1995** – Bakıda 73 yaşında vəfat etmişdir. Fəxri Xiyabanda dəfn olunmuşdur.

**2002** – May ayının 1-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Rauf Hacıyevin 80 illik yubileyi haqqında**"** Sərəncam imzalamışdır;
– İyulun 31-də Azərbaycan Dövlət Muğam Teatrında Rauf Hacıyevin 80 illik yubileyinə həsr olunmuş xatirə gecəsi keçirilmişdir;
– Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin 30 avqust 283 saylı əmrinə əsasən 15 nömrəli Musiqi məktəbinə bəstəkar Rauf Hacıyevin adı verilmişdir;
– Dekabrın 26-da Azərbaycan Musiqi Mədəniyyəti Muzeyində görkəmli mədəniyyət xadimi Rauf Hacıyevin anadan olmasının 80 illiyinə həsr olunmuş xatirə gecəsi keçirilmişdir.

**2003** – Yanvarın 24-də Musiqili Komediya Teatrı bəstəkar Rauf Hacıyevin 80 illik yubileyi münasibətilə "Qonşular" əsərinin motivləri əsasında "Talelər qovuşanda" operettasını hazırlamışdır.

**2009** – Bəstəkarın Qara Qarayev haqqında yazdığı "Müəllim və dost" məqaləsi ***"Qara Qarayev – tələbələrinin xatirəsində: esse, oçerk, portret cizgiləri və foto sənədlər toplusu"*** kitab-foto-albomunda çap olunmuşdur.

**2011** – ***"Efiopiya eskizləri" və "Konsert"*** CD ROM-ları buraxılmışdır.

**2012** – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Rauf Hacıyevin 90 illik yubileyinin keşirilməsi haqqında" sərəncam imzalamışdır;
– Aprelin 29-da Qara Qarayev adına musiqi məktəbinin akt zalında Rauf Hacıyev adına 15 saylı 11 illik Uşaq Musiqi məktəbi bəstəkarın anadan olmasının 90 illik yubileyinə həsr olunmuş konsert təşkil etmişdir;
– Mayın 14-də R.Behbudov adına Dövlət Mahnı Teatrında Rauf Hacıyevin anadan olmasının 90 illiyinə həsr olunmuş ***"Anam doğma Vətənimsən, Azərbaycanım"*** adlı konsert keçirilmişdir;
– Mayın 15-də 90 illik yubiley tədbirləri çərçivəsində Azərbaycan Dövlət Musiqili Komediya Teatrının kollektivi bəstəkarın ***"Talelər qovuşanda"*** musiqili komediyasını sənətsevərlərə təqdim etmişdir;
– İyunun 2-də Respublika Mədəniyyət Müəssisələri İşçilərinin Hazırlıq və İxtisasartırma Mərkəzində SSRİ Xalq artisti, görkəmli bəstəkar və tanınmış ictimai xadim Rauf Hacıyevin anadan olmasının 90 illik yubileyinə həsr olunmuş tədbir keçirilmişdir.

**2014** – Finlandiyada yaşayan həmvətənimiz, Kokkola şəhər konservatoriyasının skripka sinfi üzrə professoru Cahangir Ələkbərovun rəhbərlik etdiyi "Skripkaçılar ansamblının konserti"nin fəaliyyətinin başa çatması ilə əlaqədar buraxılmış





diskdə fin bəstəkarlarının Rauf Hacıyev tərəfindən aranjman edilmiş əsərləri daxil edilmişdir.

**2015** – Oktyabrın 4-də Azərbaycan Dövlət Musiqili Teatrında tanınmış rejissor, əməkdar incəsənət xadimi Əli Usubovun 80 illik yubileyi ilə əlaqədar SSRİ Xalq artisti Rauf Hacıyevin ***"Qafqazlı qardaşqızı"*** operettası nümayiş olunmuşdur. Səhnə əsəri yubilyarın quruluşunda təqdim edilmişdir.

**2016** – Fevralın 2-də bəstəkar Rauf Hacıyevin ***"Ana mən evlənirəm"*** operettası Ankara Dövlət Opera və Balet teatrında nümayiş etdirilmişdir.

**2017** –İyunda TÜRKSOY-un dəstəyi ilə Qazaxıstanın Karaqanda Musiqili Komediya Teatrının səhnəsində Azərbaycanın Əməkdar İncəsənət xadimi, rejissor Əli Usubovun rəhbərliyi ilə Rauf Hacıyevin anadan olmasının 95 illiyi münasibətilə ***"Qafqazlı qardaşqızı"*** operettasının premyerası keçirilmişdir;
– Noyabrın 24-də Azərbycan Dövlət Musiqili Teatrının rus bölməsində Rauf Hacıyevin ***"Qafqazlı qardaşqızı"*** adlı ikihissəli operettası nümayiş etdirilmişdir.

**2018** – Oktyabrın 5-də Heydər Əliyev sarayında Azərbaycan Televiziyasının "Mədəniyyət" kanalının təşkilatçılığı ilə görkəmli bəstəkar Rauf Hacıyevin mahnılarından ibarət konsert keçirilmişdir.

**2022** – Aprelin 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görkəmli Azərbaycan bəstəkarı, SSRİ xalq artisti Rauf Soltan oğlu Hacıyevin anadan olmasının 100 illiyinin qeyd olunması haqqında sərəncam imzalamışdır;

– Mayın 15-də bəstəkarın 100 illiyi münasibətilə Mədəniyyət Nazirliyinin əməkdaşları, tanınmış mədəniyyət və incəsənət xadimləri, bəstəkarın adını daşıyan 15 nömrəli Uşaq musiqi məktəbinin kollektivi və musiqiçinin ailə üzvləri Fəxri xiyabanda sənətkarın məzarını ziyarət etmişlər;

– Mayın 19-da Rauf Hacıyev adına 15 nömrəli onbirillik musiqi məktəbi Rəşid Behbudov adına Dövlət Mahnı Teatrında bəstəkarın 100 illiyinə həsr olunmuş tədbir keçirmişdir;

– Mayın 24-də Sumqayıt Regional Mədəniyyət İdarəsinin tabeliyində olan Xızı rayon uşaq musiqi məktəbində bəstəkar Rauf Hacıyevin 100 illiyinə həsr olunan ***“Anam doğma vətənimsən, Azərbaycanım”*** adlı konsert proqramı təşkil olunmuşdur;

– İyunun 16-da ADA Universitetində Rauf Hacıyevin 100 illik yubileyi münasibətilə konsert təşkil edilmişdir;

– Sentyabrın 26-da Finlandiyanın paytaxtı Helsinkidə bəstəkar Rauf Hacıyevin 100 illik yubileyi qeyd olunmuşdur;

– Nərimanov rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanasında Rauf Hacıyevin anadan olmasının 100 illiyi münasibətilə tədbir keçirilmişdir;





–“Əl-Hərir” informasiya portalında “Görkəmli Azərbaycan bəstəkarı Rauf Hacıyevin Əlcəzair mədəniyyətinə töhfəsi” sərlövhəli məqalə yayımlanmışdır;

– Rauf Hacıyevin 100 illik yubileyi ilə əlaqədar 3-27 dekabr tarixlərində keçirilən festival çərçivəsində dekabrın 6-da Heydər Əliyev Sarayında ***“Bu həyat qədər...”*** adlı estrada-caz konserti təqdim olunmuşdur;

– Anadan olmasının 100 illiyi münasibətilə M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası tərəfindən “Rauf Hacıyev” adlı elektron məlumat bazası hazırlanmşdır;

– M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası tərəfindən “Azərbaycanın görkəmli şəxsiyyətləri” seriyasından “Rauf Hacıyev. Biblioqrafiya” kitabı nəşr olunmuşdur.

## Основные даты жизни и творчества Рауфа Гаджиева

***Рауф Гаджиев родился в городе Баку 15 мая 1922 года.***

**1929** – Рауф Гаджиев поступил в общеобразовательную школу, и паралелно начал заниматься музыкой.

**1938** – По совету великого композитора Узеира Гаджибейли, поступил теоретико-композиторское отделение музыкального училища города Баку.

**1940** – 22 сентября состоялась премьера первой музыкальной комедии композитора ***«Проделки студентов»***;
– Первой премией было удостоена ***«Молодежная песня»*** композитора, представленная на республиканском молодежном фестивале.

**1941** – Поступил Азербайджанскую Государтвенную Консерваторию;
– Написал музыку к биографическому фильму ***«Низами»,*** снятому на Бакинской киностудии (реж. А.Народитски).

**1942-1944** – В годы Великой Отечественной войны добровольно служил в рядах Советской Армии;





– Воевал в составе 402-й стрелковой дивизии боях за Кавказ был ранен в одном из боев и демобилизовался из армии.

**1944-1948** – Работал руководителем эстрадного ансамбля УПО МВД Азербайджанской ССР.

**1948** –Перевелся в Московскую государственную консерваторию имени П.И.Чайковского.

**1948-1949** – В Московском Государственном Консерватории начал свои занятия по композиции у прекрасного композитора Николая Петровича Ракова, у которого он занимался не только по специальности, но и проходил инструментовку.

**1949** – Из-за семейных обстоятельств, вынужден был вернуться в Баку, проучившись в Московской консерватории всего лишь первый курс. Последующие годы учения композитора были связаны с Азербайджанской Государственной консерваторией имени Узеира Гаджибейли;
– Совместно с Ниязи, создал вокально-симфоническую сюиту ***«Колхозное утро».***

**1949-1956** – Композитор работал художественным руководителем эстрадного оркестра кинотеатра «Вэтэн».

**1950** – Появляется первая кантата ***«Весна»,*** написанная на стихи С.Вургуна, С.Рустама и

М.Рагима, посвященная 30-летию установления Советской власти в Азербайджане. Кантата впервые прозвучала в день празднования этого знаменательного исторического события под его управлением.

**1952** –Написал ***«Концерт для скрипки с оркестром».***
– Сочинил песню ***«Севгилим»*** на слова Э.Алибейли.

**1953** – Окончил Азербайджанскую Государственную Консерваторию имени Уз.Гаджибейли по классу композиции профессора Кара Караева;
– Написал ***«Молодежную симфонию»,*** которая стала его дипломной работой;
